UOT 338.43

Əli Əkbər oğlu QOCAYEV
Bakı Mühəndislik Universitetinin doktorantı
email: aqocayev1@beu.edu.az
https://doi.org/10.30546/4.71.73001.2026.005.025

AQRAR SAHƏNİN İNKİŞAFINDA İQTİSADİ AMİLLƏRİN QARŞILIQLI TƏSİR MEXANİZMLƏRİ

Xülasə

Məqalədə aqrar sahənin inkişafında iqtisadi amillərin qarşılıqlı təsir mexanizmləri sistemli şəkildə təhlil edilmişdir. Torpaq, əmək və kapital resursları, dövlət dəstəyi, investisiya mühiti, bazar infrastrukturu və texnoloji yeniliklərin aqrar istehsalın həcminə, məhsuldarlığa və dayanıqlı inkişafa təsiri araşdırılmışdır. Təhlillər iqtisadi amillər arasındakı qarşılıqlı asılılığın istehsal səmərəliliyinin yüksəldilməsində həlledici rol oynadığını göstərir. Eyni zamanda maliyyə resurslarının məhdudluğu, bazar mexanizmlərinin natamamlığı və risklərin yüksəkliyi aqrar inkişaf üçün əsas maneələr kimi müəyyən edilmişdir. İnstitusional islahatların dərinləşdirilməsi və innovativ iqtisadi mexanizmlərin tətbiqi yolu ilə aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi əsaslandırılmışdır. Tədqiqatın nəticələri milli aqrar siyasət və ərzaq təhlükəsizliyi baxımından elmi-praktik əhəmiyyət daşıyır.

Tədqiqatın məqsədi - Azərbaycanın aqrar sahəsinin mövcud vəziyyətini və inkişaf dinamikasını iqtisadi amillərin qarşılıqlı təsiri kontekstində təhlil etməkdir. Araşdırmada maliyyə, dövlət dəstəyi, investisiya, bazar və texnoloji amillərin məhsuldarlığa, həmçinin bitkiçilik və heyvandarlıq subsektorlarının balanslı inkişafına təsiri qiymətləndirilir. Eyni zamanda regional fərqliliklərin aqrar inkişafda rolu araşdırılır və dayanıqlı inkişafla ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə yönəlmiş tövsiyələr formalaşdırılır.

Tədqiqatın metodologiyası: Araşdırma sistematik təhlil və müqayisəli üsullar əsasında aparılmışdır. Dövlət Statistika Komitəsi, FAO və digər etibarlı mənbələrin məlumatlarından istifadə olunmuş, beynəlxalq təcrübə müqayisəli şəkildə təhlil edilmişdir. Nəticələrin əsaslandırılmasında ümumiləşdirmə və elmi abstraksiya metodları tətbiq edilmişdir.

Tədqiqatın praktik əhəmiyyəti - Tədqiqat nəticələri aqrar sahədə subsidiya, kredit və investisiya mexanizmlərinin təkmilləşdirilməsi üçün praktik əhəmiyyət kəsb edir. Araşdırma materialları regionlar üzrə məhsuldarlıq fərqlərinin azaldılması, subsektorlar arasında balansın təmin edilməsi və fermer təsərrüfatlarında resurslardan daha səmərəli istifadə üçün istifadə oluna bilər.

Tədqiqatın nəticələri - Nəticələr göstərir ki, aqrar sahədə artım müşahidə olunsa da, regional və subsektorlar üzrə inkişaf qeyri-bərabərdir. İqtisadi amillərin zəif koordinasiyası məhsuldarlığın tam potensialla reallaşmasına mane olur. Beynəlxalq müqayisələr aqrar sektorun ÜDM-də payının nisbətən aşağı olduğunu və struktur islahatlarına ehtiyac yarandığını göstərir. Dayanıqlı inkişaf üçün iqtisadi amillərin qarşılıqlı təsir mexanizmlərinin gücləndirilməsi zəruri hesab edilir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Tədqiqat aqrar sahənin inkişafını iqtisadi amillərin qarşılıqlı təsiri əsasında kompleks şəkildə qiymətləndirməsi ilə fərqlənir. Bitkiçilik və heyvandarlıq subsektorları qarşılıqlı asılılıq kontekstində təhlil edilmiş, regional fərqliliklər iqtisadi amillərlə əlaqələndirilmişdir. Bu yanaşma aqrar sahədə dayanıqlı inkişafın təmin olunması üçün iqtisadi amillərin sinxronlaşdırılmasına yönəlmiş yeni elmi baxış formalaşdırır.

Açar sözlər: Aqrar emal, aqrar iqtisadiyyat, inkişaf, məhsuldarlıq, investisiya, mexanizmlər, dövlət dəstəyi, ərzaq təhlükəsizliyi.

Giriş

Müasir iqtisadi şəraitdə aqrar sahə təkcə əhalinin qida ehtiyaclarını ödəməklə kifayətlənmir, həm də milli iqtisadiyyatın davamlı inkişafı və ölkədə iqtisadi sabitliyin təmin edilməsində

əhəmiyyətli rol oynayır. Qlobal iqtisadi proseslərin sürətlənməsi, iqlim dəyişikliyinin getdikcə artan təsirləri və bazar münasibətlərinin mürəkkəbləşməsi aqrar sahənin fəaliyyət mexanizmlərinə yeni yanaşmaların tətbiqini zəruri hala gətirir. Buna görə də aqrar sektorun inkişafının iqtisadi amillərin qarşılıqlı təsiri kontekstində araşdırılması aktual elmi məsələ olaraq ön plana çıxır.

Aqrar istehsalın inkişaf səviyyəsi birbaşa torpaq, əmək və kapital resurslarının səmərəli istifadəsindən, investisiya mühitinin vəziyyətindən, bazar infrastrukturlarının inkişaf dərəcəsindən və dövlətin iqtisadi tənzimləmə mexanizmlərindən asılıdır. Bu amillər bir-biri ilə sıx əlaqədə fəaliyyət göstərərək məhsuldarlığın, rəqabət qabiliyyətinin və gəlirliliyin formalaşmasına təsir göstərir. Eyni zamanda, iqtisadi amillər arasındakı tarazlığın pozulması aqrar sektorda resurs itkilərinə və inkişaf templərinin yavaşlamasına səbəb ola bilər.

Beynəlxalq təcrübə göstərir ki, aqrar sahənin səmərəli inkişafı keyfiyyətli institusional mexanizmlər, məqsədyönlü dövlət dəstəyi və bazar münasibətlərinin çevikliyi ilə şərtlənir. İnnovativ texnologiyaların tətbiqi, investisiya təşviqləri və risklərin idarə edilməsi mexanizmləri iqtisadi amillər arasında uyğun qarşılıqlı əlaqə yaradaraq davamlı inkişafı təmin edir.

Azərbaycan üçün aqrar sektorun inkişafı milli qida təhlükəsizliyinin təmin edilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Son dövrlərdə həyata keçirilən islahatlara baxmayaraq, mövcud potensialdan daha səmərəli istifadə olunması üçün iqtisadi amillərin qarşılıqlı təsir mexanizmlərinin daha dərindən təhlilinə ehtiyac davam etməkdədir.

Tədqiqatda statistik məlumatların təhlili üsulu əsasında Azərbaycanın aqrar sahəsinin mövcud vəziyyəti və 2020–2024-cü illər üzrə inkişaf dinamikası qiymətləndirilmişdir. Müqayisəli yanaşma vasitəsilə aqrar sektorun əsas göstəriciləri beynəlxalq orta səviyyə və seçilmiş ölkələrin təcrübəsi ilə tutuşdurulmuşdur. Sistemli analiz üsulu tətbiq olunaraq iqtisadi amillərin – maliyyə, dövlət dəstəyi, investisiya və texnologiyaların – qarşılıqlı təsir mexanizmləri araşdırılmışdır. Struktur-funksional yanaşma ilə bitkiçilik və heyvandarlıq subsektorlarının inkişaf xüsusiyyətləri və aralarındakı əlaqələr təhlil edilmişdir. Eyni zamanda, ümumiləşdirmə və elmi abstraksiya metodları vasitəsilə əsas problemlər və inkişaf meyilləri müəyyən edilmişdir.

Tədqiqatda əsas mənbələr kimi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, FAO və digər beynəlxalq təşkilatların hesabatları, elmi monoqrafiyalar və məqalələrdən istifadə olunmuşdur. Bununla yanaşı, aqrar sahənin inkişafını tənzimləyən normativ-hüquqi sənədlər və dövlət proqramları təhlilə cəlb edilmişdir. Yanaşmalar sırasında statistik və müqayisəli təhlil, sistemli və kompleks yanaşma əsas yer tutur. Yerli və beynəlxalq təcrübənin müqayisəsi aqrar sahədə iqtisadi amillərin təsir mexanizmlərinin daha dərindən qiymətləndirilməsinə imkan yaratmışdır. Bu mənbə və yanaşmalar tədqiqatın elmi əsaslılığı və nəticələrin praktik tətbiq imkanlarını təmin etmişdir.

Aqrar sahənin mövcud vəziyyəti və inkişaf dinamikasının təhlili

Müasir mərhələdə aqrar sahə çərçivəsində kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi problemi həm milli iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi çıxış edir, həm də beynəlxalq ictimaiyyət tərəfindən qlobal çağırışlar kontekstində xüsusi diqqət mərkəzində saxlanılır. Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın kənd təsərrüfatı sektoru son illərdə sabit inkişaf tendensiyası göstərir və bu tendensiya statistik göstəricilərdə aydın əks olunur. 2024-cü ildə kənd təsərrüfatının ümumi məhsulu real qiymətlərlə təxminən 12,995 milyard manat səviyyəsinə çataraq 2023-cü illə müqayisədə 1,5 % artmışdır. Heyvandarlıq məhsullarının dəyəri 6,833 milyon manat, bitkiçilik məhsullarının dəyəri isə 6,162 milyon manat ətrafında olmuşdur, bu da sektorun müxtəlif subsektorlarında müəyyən balansın formalaşdığına işarə edir. Bu artım əsasən heyvandarlıq məhsullarının istehsalındakı artımla müşayiət olunmuşdur: ət istehsalı 1,7 %, yumurta istehsalı 5,1 % artmış, süd istehsalı isə 0,6 % artmışdır. Beləliklə, ərzaq istehsalının əsas komponentləri üzrə sabit artım qeydə alınmışdır ki, bu da ölkənin daxili tələbatının ödənilməsi baxımından əhəmiyyətlidir. Nəticədə aqrar sahə müasir bazar sistemi və qloballaşma prinsiplərinə uyğun mexanizmlər əsasında fəaliyyət göstərən sistemə çevrilmişdir [16].

2025-ci ilin əvvəlindəki göstəricilər də bu trendi təsdiqləyir. Yanvar ayında kənd təsərrüfatı

məhsullarının istehsal həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,2 % artmış, bitkiçilik məhsullarının dəyəri 20,8 % artaraq 29,1 milyon manat səviyyəsinə çatmışdır ki, bu da xüsusilə tərəvəz və digər bitki məhsulları ilə bağlı müsbət dinamikanın olduğunu göstərir. Region səviyyəsində də aqrar göstəricilərdə fərqlər mövcuddur: bəzi iqtisadi rayonlarda məhsuldarlıq və istehsal artımı daha sürətli ikən, digər bölgələrdə bu artım zəif ola və ya sabit qala bilər. Ümumiyyətlə, Dövlət Statistika Komitəsinin yayımladığı məcmuə hesabatları göstərir ki, həm kənd təsərrüfatı müəssisələri, həm də fərdi təsərrüfat sahibləri üzrə əsas göstəricilər təhlil edilir və bu sahədə məlumatların toplanması sistemli şəkildə aparılır, bu da inkişaf strategiyalarının formalaşdırılmasına imkan yaradır [16].

Beynəlxalq baxımdan isə aqrar sektorun dünya iqtisadiyyatında rolu əhəmiyyətli olaraq qalır. FAO-nun analizlərinə görə, kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahələri xüsusilə inkişaf etməkdə olan ölkələrin ÜDM-də mühüm paya malikdir və bu sahə milyonlarla insanı məşğul edir. Qlobal kənd təsərrüfatı istehsalının dəyəri son iyirmi ildə əhəmiyyətli dərəcədə artmışdır ki, bu da bazarların böyüməsi və ərzaq istehsalının genişlənməsi ilə əlaqədardır.

Beynəlxalq təcrübə göstərir ki, aqrar sahədə məhsuldarlığın artırılması üçün müasir texnologiyaların tətbiqi, suvarma sistemlərinin yenilənməsi və fermerlərə dəstək mexanizmlərinin gücləndirilməsi vacibdir. Məsələn, Polşa və Türkiyə kimi ölkələrdə suvarma infrastrukturunun təkmilləşdirilməsi və toxum seçim strategiyalarının optimallaşdırılması məhsul istehsalının davamlı artımına gətirib çıxarmışdır. Bu təcrübələr Azərbaycanda da tətbiq oluna biləcək modellər kimi çıxış edir. Bu istiqamətdə tədqiqatların gücləndirilməsini təklif edirik.

Araşdırmamız göstərir ki, Azərbaycanın aqrar sahəsi, xüsusilə bitkiçilik və heyvandarlıq subsektorları 2020-2024-cü illərdə sabit, lakin nisbətən yavaş artım dinamikasına malik olmuşdur. Bitkiçilik məhsullarının payı 48 %-dən 50,4 %-ə qədər artmış, sonra 48,5 %-ə qədər azalmışdır, heyvandarlıq isə əksinə, 52 %-dən 51,5 %-ə qədər dəyişmişdir. Bu göstəricilər subsektorlar arasında balansın təxminən qorunduğunu, lakin illər üzrə kiçik dalğalanmaların mövcud olduğunu göstərir.

Aqrar sahənin ÜDM-də payı isə 5,5 %-dən 5,66 %-ə yüksəlmişdir ki, bu, Azərbaycanın iqtisadiyyatında aqrar sahənin rolunun hələ də məhdud olduğunu göstərir. Dünya üzrə orta göstərici isə 9,2 %-dir, bu müqayisə isə açıq göstərir ki, Azərbaycanın aqrar sektoru beynəlxalq standartlarla müqayisədə hələ də geri qalır. Beləliklə, cədvəl həm mövzunun - “Aqrar sahənin mövcud vəziyyəti və inkişaf dinamikası” - tələblərini əks etdirir, həm də iqtisadi amillərin qarşılıqlı təsir mexanizmləri baxımından ilkin diaqnostik bazanı təmin edir [16].

Cədvəl 1.

Azərbaycanın aqrar sahəsinin inkişaf dinamikası və beynəlxalq müqayisə (2020-2024, %)

İl	Bitkiçilik məhsulları payı	Heyvandarlıq məhsulları payı	Aqrar sahənin ÜDM-də payı	Dünya ortalaması (ÜDM payı)
2020	48,0	52,0	5,5	9,0
2021	49,0	51,0	5,6	9,0
2022	50,4	49,6	5,7	9,1
2023	48,6	51,4	5,6	9,1
2024	48,5	51,5	5,66	9,2

Mənbə: https://www.stat.gov.az/source/agriculture/
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/agriculture_2024.pdf

Cədvəl üzrə aparılan təhlillər göstərir ki, aqrar sahənin ümumi daxili məhsulda (ÜDM) payının beynəlxalq göstəricilərlə müqayisədə aşağı səviyyədə qalması sahənin əsas problematik məsələlərindən biridir. Subsektorlar üzrə məhsuldarlığın regionlar və texnoloji təminat baxımından qeyri-bərabər paylanması daxili ərzaq təhlükəsizliyinə və ixrac potensialına mənfi təsir göstərir ki, bu da aqrar istehsalın strukturunda səmərəlilik problemlərinin mövcudluğunu şərtləndirir.

İ. Şəkərəlisoyun tədqiqatlarında göstərildiyi kimi, aqrotexnoloji yeniliklərin tətbiqi, suvarma infrastrukturunun təkmilləşdirilməsi və fermer təsərrüfatlarına maliyyə-institusional dəstəyin gücləndirilməsi bitkiçilik və heyvandarlıq məhsuldarlığının artmasına real imkanlar yaradır və aqrar sektorun ÜDM-də payının yüksəldilməsinə şərait yarada bilər [9, s. 81–83].

Ümumilikdə aqrar sahənin inkişaf dinamikası iqtisadi amillərin qarşılıqlı təsir mexanizmlərinin həlledici rol oynadığını göstərir. Subsektorlar arasında balansın qorunması, məhsuldarlığın artırılması və regional fərqliliklərin azaldılması strateji əhəmiyyət daşıyır. Aqrar sahənin ÜDM-də payının aşağı olması iqtisadi amillərin təsirinin yetərincə reallaşmadığını ortaya qoyur.

F.Q. Şirinzadə və E.H. Mahmudov aqrar sahəni ölkə iqtisadiyyatında daxili tələbatın ödənilməsi və ixrac potensialının artırılması baxımından strateji sektor kimi qiymətləndirərək, onun makroiqtisadi sistemdə mühüm funksional rol oynadığını vurğulayırlar [10, s. 1]. Bu yanaşma aqrar sahənin ümumi iqtisadi inkişafın ayrılmaz komponenti olduğunu göstərir.

“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nə əsasən, aqrar inkişaf həm təbii şərtlər, həm də maliyyə resursları, dövlət dəstəyi, investisiya mühiti və bazar sabitliyi kimi iqtisadi amillərin koordinasiyalı təsiri ilə müəyyən olunur. Bu amillərin səmərəli idarə olunması subsektorlar üzrə məhsuldarlığın yüksəldilməsinə və resurslardan rasional istifadəyə imkan yaradır.

E.Ə.Quliyev və C.N.Səfərov aqrar islahatların əsas problemlərindən biri kimi satış mexanizmlərinin zəif formalaşmasını qeyd edərək, bazar infrastrukturunun qeyri-kafi inkişafının fermer gəlirlərinin azalmasına və ixtisaslaşmanın ləngiməsinə səbəb olduğunu göstərirlər [5, s. 39]. Bu yanaşma aqrar bazarların kompleks şəkildə inkişaf etdirilməsinin zəruriliyini əsaslandırır.

Y.M. Sadıqov aqrar sahəni iqtisadiyyat və sənaye arasında əlaqələndirici funksiyanı yerinə yetirən aktiv struktur komponenti kimi qiymətləndirir və iqtisadi amillərin çoxşaxəli təsir mexanizmlərinin sahənin uzunmüddətli inkişaf trayektoriyasını müəyyən etdiyini vurğulayır [8, s. 6]. G.Ş. Bədirzadə isə aqrar inkişafın maliyyə, texnologiya, bazar şərtləri və regional sosial-iqtisadi fərqliliklərin qarşılıqlı təsiri əsasında formalaşdığını göstərərək, inklüziv inkişaf modelini ön plana çıxarır [3, s. 55–56].

Beynəlxalq təcrübə (ABŞ, Hollandiya, Almaniya və Türkiyə nümunələri) sübut edir ki, iqtisadi amillərin koordinasiyası və innovativ texnologiyaların tətbiqi subsektorlar üzrə balansı qoruyur və məhsuldarlığın davamlı artımını təmin edir. Azərbaycan təcrübəsi göstərir ki, dövlət dəstəyi və innovativ alətlər müsbət təsir yaratsa da, regionlar üzrə qeyri-bərabərlik hələ də potensialın tam reallaşmasına mane olur.

Beləliklə, aqrar sahənin inkişafında iqtisadi amillərin səmərəli və koordinasiyalı idarə olunması subsektorlararası balansın qorunması, məhsuldarlığın yüksəldilməsi və milli ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından əsas problem və prioritet istiqamət kimi çıxış edir.

Cədvəldə göstərildiyi kimi, aqrar sahənin inkişafında əsas problemlər maliyyə resurslarının qeyri-bərabər paylanması, texnoloji imkanların regionlar üzrə fərqliliyi və bazar riskləridir. Bu amillər subsektorlar üzrə balanssızlığa, məhsuldarlığın aşağı səviyyədə qalmasına və kənd təsərrüfatının ÜDM-də payının beynəlxalq göstəricilərdən geri qalmasına səbəb olur. Bu baxımdan dövlət dəstəyi, innovativ texnologiyaların tətbiqi və resursların səmərəli idarə olunması aqrar sahənin dayanıqlı inkişafında həlledici rol oynayır.

E.Ə.Quliyev aqrar sahədə texnoloji inkişafın, əmək və kapital resurslarından səmərəli istifadənin məhsulun rəqabət qabiliyyətini müəyyən etdiyini vurğulayır. Müəllif göstərir ki, iri aqrar təsərrüfatlarda əmək məhsuldarlığı və əsas fondlardan istifadə göstəricilərinə yetərincə diqqət ayrılmadıqda, yüksək potensiala baxmayaraq gəlirlilik aşağı olur və bazar rəqabəti zəifləyir [6, s. 32]. Bu yanaşma aqrar bazarlarda institusional tənzimləmənin vacibliyini əsaslandırır.

N.C.Qafarovun tədqiqatlarında isə aqrar inkişafın əsasən maliyyə resursları, subsidiya və kredit mexanizmləri, texnoloji təminat və bazar sabitliyi kimi iqtisadi amillərin qarşılıqlı təsirindən asılı olduğu göstərilir. Müəllif regionlar üzrə texnoloji və infrastruktur fərqliliklərinin subsektorların

inkişaf trayektoriyasına birbaşa təsir etdiyini qeyd edir [4, s. 211–212]. Bu yanaşma regional balansın qorunmasının əhəmiyyətini ön plana çıxarır.

Cədvəl 2.

Aqrar sahədə iqtisadi amillərin qarşılıqlı təsir mexanizmləri: problemlər, təsirlər və həll yolları

Mövcud çətinliklər	Aqrar sahəyə təsiri	Mümkün həll yolu və tövsiyələr
Maliyyə resurslarının qeyri-bərabər paylanması və kredit imkanlarının məhdudluğu	Fermerlərin və kiçik təsərrüfatların texnoloji yeniliklərə və məhsul istehsalına çıxış imkanlarını məhdudlaşdırır, subsektorlar arasında məhsuldarlıq fərqliliklərinə səbəb olur.	Dövlət tərəfindən hədəfli subsidiyalar, kredit mexanizmlərinin genişləndirilməsi və xüsusi investisiya proqramlarının tətbiqi ilə maliyyə resurslarının balanslaşdırılması
Texnologiya və infrastrukturun regionlar üzrə fərqli səviyyədə olması	Müasir texnologiyaların və suvarma infrastrukturunun çatışmazlığı məhsuldarlığı aşağı salır, regional balansın pozulmasına və subsektorlar arasında inkişaf fərqlərinə gətirib çıxarır.	Suvarma sistemlərinin yenilənməsi, innovativ texnologiyaların tətbiqi, regionlara texnoloji dəstəyin təmin edilməsi və təlim proqramlarının təşkili
Bazar riskləri və qiymət dalğalanmaları	Məhsul istehsalı planlaşdırılmasında qeyri-müəyyənlik yaradır, fermerlərin gəlir sabitliyini azaldır və investisiya qoyuluşunu riskli edir	Bazara çıxış mexanizmlərinin gücləndirilməsi, qiymət stabilliyi üçün dövlət siyasəti və bazar proqnozlaşdırma sistemlərinin tətbiqi
Sub-sektorlar arasında balansın pozulması	Bitkiçilik və heyvandarlıq arasında resurs və investisiya paylanması qeyri-bərabər olur, daxili ərzaq təminatı və ixrac potensialı optimal səviyyəyə çatmır.	Resursların səmərəli idarə olunması, subsektorlar üzrə tarazlı inkişaf strategiyalarının hazırlanması və dövlət tərəfindən koordinasiyanın təmin olunması
Beynəlxalq standartlarla müqayisədə məhsuldarlığın aşağı olması	ÜDM-də payın beynəlxalq göstəricilərdən geri qalması, rəqabət qabiliyyətinin azalması və sektorda potensialın tam realizə olunmaması	Beynəlxalq təcrübənin tətbiqi, məhsuldarlığın artırılması

Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır.

Beynəlxalq təcrübə də iqtisadi və texnoloji amillərin koordinasiyasının vacibliyini təsdiqləyir. OECD-FAO Agricultural Outlook 2025–2034 hesabatına əsasən, kənd təsərrüfatında istehsal artımı əsasən məhsuldarlıq qazancı və innovativ texnologiyaların tətbiqi hesabına mümkün olacaqdır [12]. FAO-nun rəqəmsal kənd təsərrüfatı üzrə araşdırmaları isə göstərir ki, rəqəmsal və innovativ həllər resurslardan istifadənin optimallaşdırılmasına və subsektorlar üzrə məhsuldarlığın yüksəldilməsinə töhfə verir [13].

Azərbaycan kontekstində maliyyə və texnoloji dəstək mexanizmlərinin genişləndirilməsinə baxmayaraq, regionlar üzrə infrastruktur və texnoloji çıxış imkanlarındakı qeyri-bərabərlik sahənin potensialının tam reallaşmasına mane olur. Bu isə beynəlxalq təcrübənin milli aqrar siyasətə daha səmərəli inteqrasiyasının vacibliyini göstərir.

Eyni zamanda, milli iqtisadiyyatın və aqrar sahənin inkişafı üçün beynəlxalq iqtisadi əlaqələrin – xüsusilə beynəlxalq ticarət, kapital və əməyin miqrasiyası proseslərinin – təhlili və dərk edilməsi strateji əhəmiyyət kəsb edir.

Cədvəl 3.

Aqrar sahədə iqtisadi amillərin qarşılıqlı təsir mexanizmlərinin subsektorlar üzrə təsiri və problemlərin analizi (2020-2025-ci illər üçün)

İqtisadi amillər	2020-2025 orta göstərici vəziyyəti (Azərbaycan)	Beynəlxalq kontekst	Aqrar sahəyə təsiri	Mövcud çətinliklər
Subsidiyalar	Təqribi 714,5 milyon AZN 380 704 fermerə verilib.	Avropa İttifaqı kimi bəzi strukturlarda subsidiyalar daha hədəflənmiş və səmərəli paylanır.	Fermerlərin texnika və avadanlığa çıxışını artırır, modernizasiyanı stimullaşdırır.	Subsidiya strukturu hələ də təkmilləşməyə ehtiyac duyur; səmərəlilik və qanunilik tam deyil.
Kredit və maliyyə dəstəyi	2020-2023 illərdə sektor üzrə kredit artır, 2022-də 583,7 mln AZN civarı; 2025-də güzəştli kreditlər ~89,8 mln AZN verilib.	Dünya Bankı və beynəlxalq institutlar aqrar kreditləri daha geniş və diversifikasiyalı təmin edirlər.	Bank kreditləri texnologiya və sığorta imkanlarını artırır, modernizasiya üçün şərait yaradır.	Kreditlər hələ də qeyri-kafidir, faiz və şərtlər subsektorlar üçün optimallaşmayıb.
İnvestisiya və texnoloji dəstək	Avadanlıq subsidiyaları 80-83 mln AZN səviyyəsində ayrılır.	Qlobal layihələrdə texnologiya + keyfiyyətartırıcı investisiyalar subsektorları gücləndirir.	Müasir texnologiyalar məhsuldarlığı artırır; subsektorlar arasında fərqlilikləri azaldır.	Texnoloji tətbiq subsektorlar arasında hələ balanslaşdırılmayıb
Bazar əlaqələri və ixrac imkanları	Aqrar məhsul ixracında artım müşahidə olunmuşdur.	Beynəlxalq təcrübədə inkişaf etmiş ölkələrdə aqrar məhsulların ixrac imkanları və bazar infrastrukturu daha genişdir, məhsulların dünya bazarına çıxışı yüksək səviyyədə təşkil olunub.	Bazar əlaqələri və ixrac imkanları aqrar sahədə gəlirləri artırır, istehsalı stimullaşdırır və subsektorlar arasında rəqabət qabiliyyətini gücləndirir.	Azərbaycan aqrar məhsullarının bazar və ixrac infrastrukturu hələ kifayət qədər inkişaf etməyib, bu isə subsektorların tam potensialını istifadə etməyə imkan vermir.

Mənbə: https://stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2024.pdf? https://statbase.org/data/wld-agriculture-and-fishing-value-added-share/?

Nəticə

Aparılmış tədqiqatın nəticələrinə əsasən aqrar sahədə mövcud çətinliklərin həlli üçün ilk növbədə iqtisadi amillərin koordinasiyasının gücləndirilməsi zəruridir. Bu məqsədlə dövlət subsidiyaları və kredit mexanizmləri regionlar və subsektorlar üzrə daha balanslı və şəffaf şəkildə yönəldilməlidir. Suvarma infrastrukturu və müasir aqrotexnoloji avadanlıqların tətbiqi xüsusilə məhsuldarlığın aşağı olduğu bölgələrdə prioritet istiqamət kimi müəyyən edilməlidir. Fermerlərin bazar risklərini azaltmaq üçün kənd təsərrüfatı məhsulları üzrə qiymət monitorinqi və proqnozlaşdırma mexanizmləri gücləndirilməlidir. Eyni zamanda, fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə təlim və məsləhət xidmətlərinin genişləndirilməsi vacibdir. İxrac potensialının artırılması üçün aqrar məhsulların emalı, saxlanması və logistika infrastrukturunun inkişaf etdirilməsi tövsiyə olunur. Ümumilikdə, bu istiqamətdə həyata keçiriləcək kompleks tədbirlər aqrar sahənin dayanıqlı inkişafını və milli ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsini təmin edə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. https://e- qanun.az/framework/57124
2. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, "Kooperasiya" nəşriyyatı, 536 s.
3. Bədirzadə G.Ş. Azərbaycanda aqrar sahənin inkişafında informasiya-kommunikasiya texnologiyalarının səmərəliliyinin qiymətləndirilməsi. Kənd təsərrüfatının iqtisadiyyatı. Elmi-praktik jurnal. Aqrar Tədqiqatlar Mərkəzi. № 4 (38) Bakı – 2021. 125 s.
4. Qafarov N.C. "Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri". Monoqrafiya. Bakı, 2023, Kooperasiya" nəşriyyatı, 320 s
5. Quliyev, E.Ə., Səfərov C.N. Kənd təsərrüfatının ixtisaslaşması və regionlarda aqrar məhsullar bazarının inkişafı. Kənd təsərrüfatının iqtisadiyyatı - 2024, № 2 (46). (s. 38-46). https://atm.gov.az/pdf/magazine/jurnal-n2-2024-online-son856.pdf
6. Quliyev, E.Ə. Kənd təsərrüfatı məhsullarının istehsal xərclərinin aşağı salınması istiqamətləri. Kənd təsərrüfatının iqtisadiyyatı. Elmi-praktik jurnal. Aqrar Tədqiqatlar Mərkəzi. № 2 (32) Bakı – 2020. (s.28-35). https://atm.gov.az/pdf/magazine/2.pdf
7. Pənahov A. "Beynəlxalq iqtisadi siyasət". Metodik vəsait. Bakı, 2016. 171 s. https://lib.dia.edu.az/Resources/OpenFile?name=491f9446-d203-443e-b5fe-de7da60e7508-52F683A9.pdf#toolbar=0
8. Sadıqov Y.M. "Aqrar emal sənayesinin iqtisadiyyatı". Bakı, 2025. 340 s.
9. Şəkərəlisoy, İ. Sahibkarlığın inkişafının regional problemləri. Naxçıvan Dövlət Universiteti. "İqtisadi inkişafın Naxçıvan modeli və mühasibat uçotunun aktual problemləri" mövzusunda elmi konfransın materialları, Naxçıvan, "Qeyrət" nəşriyyatı, 2020, 148 s.(s. 81-84).
10. Şirinzadə, F.Q., Mahmudov, E.H. Aqrar sahənin problemləri və inkişaf perspektivləri. ADAU-nun Elmi Əsərləri. Gəncə, 2018, №1. (s 150-153). https://www.elibrary.az/docs/jurnal/jrn2018_103.pdf
11. Industrial policy and economic planning: the case of development-based public procurement and national champions in supporting local manufacturing. Harvard University, John F. Kennedy School of Government, 2021, 98 p.
12. OECD və FAO tərəfindən birgə nəşr olunan *OECD-FAO Agricultural Outlook 2025–2034* - geniş qlobal aqrar perspektivlər və məhsuldarlıq trendləri haqqında hesabat. https://www.oecd.org/en/publications/2025/07/oecd-fao-agricultural-outlook-2025-2034_3eb15914.html
13. FAO-nun rəqəmsal kənd təsərrüfatının innovativ texnoloji həllər üzrə səhifəsi - kənd təsərrüfatı texnologiyaları və rəqəmsal transformasiya barədə məlumatlar. https://www.fao.org/innovation/home/digital-agriculture-and-aiinnovation/en
14. https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/443201548471646286/turkey-irrigation-modernization-project?
15. https://www.theglobaleconomy.com/Azerbaijan/share_of_agriculture
16. https://www.stat.gov.az/source/agriculture/?utm_source=chatgpt.com

Али Акбар оглы Годжаев
докторант Бакинского Инженерного Университета
Email: agocayev1@beu.edu.az

Механизмы взаимодействия экономических факторов в развитии аграрного сектора

Резюме

В статье системно проанализированы механизмы взаимодействия экономических факторов в развитии аграрного сектора. Исследовано влияние земельных, трудовых и капиталь-

ных ресурсов, государственной поддержки, инвестиционной среды, рыночной инфраструктуры и технологических инноваций на объем сельскохозяйственного производства, производительность и устойчивое развитие. Анализ показывает, что взаимозависимость экономических факторов играет решающую роль в повышении эффективности производства. В то же время ограниченность финансовых ресурсов, незавершенность рыночных механизмов и высокий уровень рисков определены как основные препятствия аграрного развития. Обоснована необходимость углубления институциональных реформ и внедрения инновационных экономических механизмов для обеспечения устойчивого развития аграрного сектора. Результаты исследования имеют научно-практическое значение для формирования национальной аграрной политики и укрепления продовольственной безопасности.

Цель исследования: Целью исследования является анализ текущего состояния и динамики развития аграрного сектора Азербайджана в контексте взаимодействия экономических факторов. В работе оценивается влияние финансовых ресурсов, государственной поддержки, инвестиционных возможностей, рыночных механизмов и технологических факторов на производительность, а также на сбалансированное развитие подотраслей растениеводства и животноводства. Кроме того, исследуется роль региональных различий в развитии аграрного сектора и формируются рекомендации, направленные на обеспечение устойчивого развития и укрепление продовольственной безопасности.

Методология исследования: Исследование основано на методах системного анализа и сравнительного исследования. Использованы данные Государственного комитета статистики, ФАО и других надежных источников. Международный опыт проанализирован на основе сравнительных наблюдений, а для обоснования выводов применены методы обобщения и научной абстракции.

Практическая значимость: Результаты исследования имеют практическое значение для совершенствования механизмов субсидирования, кредитования и инвестирования в аграрном секторе. Материалы исследования могут быть использованы для сокращения региональных различий в производительности, обеспечения баланса между подотраслями и более эффективного использования ресурсов в фермерских хозяйствах.

Результаты исследования: Результаты показывают, что несмотря на наблюдаемый рост в аграрном секторе, развитие носит неравномерный характер по регионам и подотраслям. Слабая координация экономических факторов препятствует полной реализации потенциала производительности. Международные сравнения свидетельствуют о относительно низкой доле аграрного сектора в ВВП и необходимости проведения структурных реформ. Усиление механизмов взаимодействия экономических факторов рассматривается как ключевое условие устойчивого развития.

Оригинальность и научная новизна: Оригинальность исследования заключается в комплексной оценке развития аграрного сектора на основе взаимодействия экономических факторов. Подотрасли растениеводства и животноводства проанализированы в контексте их взаимозависимости, а региональные различия увязаны с экономическими детерминантами. Такой подход формирует новый научный взгляд, направленный на синхронизацию экономических факторов с целью обеспечения устойчивого развития аграрного сектора.

Ключевые слова: Агропереработка, агроэкономика, развитие, производительность, инвестиции, механизмы, государственная поддержка, продовольственная безопасность.

Ali Akbar oglu Gojayev
Doctoral Student, Baku Engineering University
Email: agocayev1@beu.edu.az

Interaction mechanisms of economic factors in the development of the agricultural sector

Summary

The article provides a systematic analysis of the mechanisms of interaction among economic factors in the development of the agricultural sector. The impact of land, labor, and capital resources, state support, the investment environment, market infrastructure, and technological innovations on the volume of agricultural production, productivity, and sustainable development is examined. The analysis demonstrates that the interdependence of economic factors plays a decisive role in enhancing production efficiency. At the same time, limited financial resources, incomplete market mechanisms, and high levels of risk are identified as major constraints to agricultural development. The study substantiates that deepening institutional reforms and implementing innovative economic mechanisms are essential for ensuring the sustainable development of the agricultural sector. The findings are of scientific and practical significance for national agricultural policy and food security.

Purpose of the study: The purpose of the study is to analyze the current state and development dynamics of Azerbaijan's agricultural sector within the context of the interaction of economic factors. The research assesses the impact of financial resources, state support, investment opportunities, market mechanisms, and technological factors on productivity, as well as on the balanced development of crop production and livestock subsectors. In addition, the role of regional disparities in agricultural development is examined, and recommendations aimed at strengthening sustainable development and food security are formulated.

Methodology: The study is based on systematic analysis and comparative research methods. Data from the State Statistical Committee, FAO, and other reliable sources were used to examine the development dynamics of the agricultural sector. International experience was analyzed through comparative observations, while generalization and scientific abstraction methods were applied to substantiate the research findings.

Practical significance: The research results have practical relevance for improving subsidy, credit, and investment mechanisms in the agricultural sector. The findings can be used to reduce regional productivity disparities, ensure balance between subsectors, and promote more efficient use of resources in farming enterprises.

Results: The results indicate that although stable growth has been observed in the agricultural sector, development remains uneven across regions and subsectors. Weak coordination among economic factors hinders the full realization of productivity potential. International comparisons reveal that the share of agriculture in GDP is relatively low, highlighting the need for structural reforms. Strengthening the mechanisms of interaction among economic factors is considered a key prerequisite for sustainable development.

Originality and scientific novelty: The originality of the study lies in its comprehensive assessment of agricultural development based on the interaction of economic factors. Crop production and livestock subsectors are analyzed within a framework of mutual interdependence, and regional disparities are linked to economic determinants. This approach forms a new scientific perspective aimed at synchronizing economic factors to ensure sustainable development in the agricultural sector.

Key words: Agricultural processing, agricultural economy, development, productivity, investment, mechanisms, state support, food security